# Mustafa Quliyevin sənət konsepsiyasında milli teatr və musiqi problemləri

**Qızqayıt Süleymanova**
*Bakı Qızlar Universitetinin dosenti,*
*filologiya üzrə fəlsəfə doktoru*
**E-mail:** fidan_abdurahmanova@mail.ru

**Rəyçilər:** filol.ü.e.d., prof. N.Ş. Şəmsizadə,
filol.ü.f.d., dos. İ.M. Məmmədli

**Açar sözlər:** sənət konsepsiyası, milli teatr, millimusiqi
**Ключевые слова:** концепции искусства, национальный театр, национальная музыка
**Key words:** concept of art, national theater, national music

M.Quliyevin sənət konsepsiyasında milli teatr və musiqi problemləri əsas yer tutaraq aparıcı istiqamətləri müəyyən edir. O, hələ klassik dramaturgiya, xüsusən də M.F.Axundov, H.Cavid və C.Cabbarlı haqqındakı yazılarında dramaturgiyanı milli teatr prosesi ilə vəhdətdə araşdırmış, teatrın milli-tarixi mövqeyi baxımından qiymətləndirmişdir. Bu həm o zaman, həm də indiki zaman müstəvisində özünü doğruldur.

M.Quliyevin həm maarifçi, həm də sənət görüşlərinə təsir edən şəxsiyyətlərdən biri də tənqidçi və nəzəriyyəçi, maarif komissarı V.Lunaçarski olmuşdur. O, Azərbaycanın maarif komissarı olarkən təbii olaraq birbaşa Lunaçarski təliminə istinad edirdi. “Topal Teymur”un tənqidi ilə əlaqədar “ədəbiyyat başqa, siyasət və təbliğat başqadır” deyən H.Cavidə cavab olaraq tənqidçi bu fikri «sənət sənət üçündür» mahiyyətli hesab edərək onu Oskar Uayla və A.S.Puşkinlə əlaqələndirirdi. A.S.Puşkinin belə bir sözü var: “Dəf olun! Dinc şairin sizinlə nə işi var?” O, O.Uayldın belə bir fikrini misal gətirirdi: «Sənət — çəmənlərdə bulunmayan çiçəklər, meşələrdə tapılmayan quşlar tanıyır. O bir çox dünyalar yaradır, bir çox dünyaları məhv edir, göydən al sap ilə ayı yanına çəkir». Beləliklə də, H.Cavidi “Sənət sənət üçündür” nəzəriyyəsində günahlandıran tənqidçi sənətin həyati əsasa malik olmasını həlledici amil sayırdı: “Sənət öz materialını həqiqi həyatdan alır. Həqiqi həyatdan yuxarı qalxmaq — sənətin əsasını qırmaq, sənətin yaradıcılıq qüvvələrini öldürmək, onu mücərrəd xəyala döndərmək deməkdir” (110, s. 26-27). Öz inqilabi dünyagörüşünə uyğun olaraq M.Quliyev sənətin sosiologiyasına, onun “İctimai determinizmi”nə (K.V.Plexanov) üstünlük verirdi. O, sənət əsərində daha çox ictimai amil, ictimai nöqsan axtarırdı. Bunun üçün də M.Quliyev ilk növbədə bədii əsərin, sənət əsərinin meydana gəldiyi tarixi-ictimai kontekstin nəzərə alınmasının vacibliyi ideyasını irəli sürürdü. Ona görə də tənqidçi belə nəticəyə gəlirdi ki, “Sənəti həyatdan ayırmaq, şəxsi bədii duyğular içərisinə qapanmaq incəsənəti öldürməkdən başqa bir şey deyildir” (111, s. 33.) M.Quliyev ifrat materializmə qapılaraq sənətdə şəxsiyyət başlanğıcının, insan hisslərinin rolunu heçə endirir, onu həyatda birbaşa asılı edirdi. Halbuki, “Şairin yaradıcılıq fəaliyyətinin mənbəyi onun şəxsiyyətində ifadə olunan poetik ruhdadır, buna görə də onun əsərlərinin ruhunun və xarakterinin izahını birinci növbədə şairin şəxsiyyətində axtarmaq lazımdır” (112, s. 137). M.Quliyev böyük reformator M.F.Axundovun belə fəaliyyətinin “Sənət sənət üçündür” nəzəriyyəsinə qarşı yönəldiyini iddia edirdi (113, s. 9). Tənqidçi ədəbiyyat və sənəti proletariatın həyata keçirdiyi mədəni inqilabın tərkib hissəsi kimi təhlil və tədqiq edirdi.

M.Quliyevin sənət konsepsiyasında milli teatr və musiqi problemləri əsas yer tutaraq aparıcı istiqamətləri müəyyən edir. O, hələ klassik dramaturgiya, xüsusən də M.F.Axundov, H.Cavid və C.Cabbarlı haqqındakı yazılarında dramaturgiyanı milli teatr prosesi ilə vəhdətdə araşdırmış, teatrın milli-tarixi mövqeyi baxımından qiymətləndirmişdir. Bu həm o zaman, həm də indiki zaman müstəvisində özünü doğruldur. Müasir fundamental tədqiqatlardan birində deyilir: "Poetika haqqında təlim teatr düşüncəsinin, teatr yaradıcılığının forma, növ, vasitə və üslublarının təyinini, struktur tipləri və janrların müəyyən edilməsini nəzərdə tutur. Zaman-məkan növü olan teatr ədəbiyyatşünaslıq anlayışlarından da faydalanaraq yaradıcı prosesin qanun və qaydalarını, teatr obrazlarının strukturlarını, müxtəlif bədii-estetik qurğuların formalaşma şərtlərini tədqiq edir, inkişaf konsepsiyasını təqdim edir" (116, s. 15) Beləliklə, teatrın, nəzəriyyəsi və poetikasının təkamülü ədəbiyyatşünaslıq və ədəbi tənqidin bu yöndəki təcrübələrindən əhəmiyyətli şəkildə asılıdır. O, ədəbi-nəzəri fikrin nəticələrini bir arsenal olaraq qəbul edir. 20-30-cu illərdə də Azərbaycan teatrının hələ əsrin önlərindən start götürdüyü inkişaf ritmini saxlamaq; yeni kommunist-bolşevik ideologiyası ilə milli teatr prosesi arasında uyarlıq yaratmaq, sərt desək, teatrı mühüm sovet ideoloji təbliğat maşınına çevirmək uğrunda mübarizə gedir. Ona görə də ədəbi tənqid H.Cavidin "Peyğəmbər", "Topal Teymur" kimi əsərlərini qəbul edə bilmir, sifarişlə dram yazmaq, neftdən, pambıqdan, sənayeləşmədən bəhs edən, konflikti yeniliyin köhnəlik üzərində qələbəsi ilə həll olunan, özü də müəllim mövqeyinin tendensiyalı ifadəsi olaraq həll olunan əsərlər tələb edirdi. Beləliklə də, qüdrətli sənətkar C.Cabbarlının "Sevil", "Almaz", "Yaşar", M.İbrahimovun "Həyat" pyesləri meydana gəldi.

Müasirlik problemini estetik meyar götürərək Azərbaycan teatr sənətini təhlil edən M.Quliyev belə bir yanlış başlanğıcdan çıxış edirdi ki, "Türk teatrosunun inkişafı və çiçəklənmə tarixi Azərbaycanda şura hakimiyyəti təşkil olunduqdan sonra başlanır" (117). Belə bir yanlış başlanğıc onun teatrın sovet quruluşundan əvvəlki cəmiyyətdə roluna verdiyi qiymətin də sırf sinfi xarakter, yanlış səciyyə daşımasına gətirib çıxarır: "Kapitalizm cəmiyyətinin təməllərini möhkəmlətmək — işdə burjuaziya teatrolarının vəzifəsi bundan ibarətdir".

M.Quliyev modern Avropa mədəniyyətinin qızğın müdafiəçisi idi. Ona görə də bəzən o, ifrata qapılaraq Şərq mədəniyyətini mühafizəkarlıqda ittiham edirdi. M.Quliyev Avropa ənənələri və Azərbaycan teatrı məsələsindən bəhs edərkən klassikin ümumbəşəriliyi ideyasından çıxış edirdi. Yeni teatr yaratmaq üçün aktyor sənətini inkişaf etdirmək, tərcümə və orijinal əsərlərlə repertuarı zənginləşdirmək, qadın aktyoru məsələlərindən bəhs edən tənqidçi ənənə və varislik problemini, o cümlədən Avropa dramaturqları V.Şekspir və F.Şiller kimi klassiklərə müraciətini təqdir edir.

M.Quliyev səhnəyə təkcə tamaşaçı yeri və estetik zövq almaq üçün lazım olan məkan kimi baxmır, yüksək təhsil müəssisəsi kimi qiymət verirdi.

"Teatro həyəcan və bədii nüfuz vasitəsilə kütlənin görüşünü və mədəni səviyyəsini qaldıran və genişləndirən təlimi və tərbiyəvi bir orqandır".

M.Quliyevin sənət konsepsiyasında musiqi haqqında mülahizələr xüsusi yer tutur. Musiqimizə münasibətdə də o, "mədəni inqilab»ın şablon tələblərindən törənən ideya-mənəvi sapıntılara yol verirdi".

20-30-cu illərdə M.Quliyevə yaxından bələd olan müasirləri sonralar onun ifratlarına da düzgün qiymət verirdilər: "Mustafa Quliyevin tənqidi fikirlərində, onun işində, tədbirlərində də bəzən ifrat olurdu. Lakin bu ifrat ötəri xarakter daşıyır, onun ideya mövqeyin-də əsas yer tutmurdu. Elə hallar da olurdu ki, onun ifrat kimi görünən fikri, sözü əslində geriliyə,

avamlığa, nadanlığa qarşı bir qəzəbli protest, bir könül hayqırığı kimi adi norma və vərdişlərin çərçivəsini aşmış olurdu" (122).

Həqiqətən də, M.Quliyevin istər klassik irs, istər teatr, istərsə də musiqi mədəniyyətimizlə bağlı ifratları onun yeniliyi müdafiə naminə sərtlik və prinsipiallığından irəli gəlirdi. Bu səhvlərdə, bəzi inkarlarda keçmiş mədəniyyətə heç bir nifrət duyğusu yox idi. O, yeniliyi müdafiə naminə Azərbaycan mədəniyyətinin az bir zamanda dünya mədəniyyətləri sırasına çıxması naminə mübarizə apararkən səhvlərə və sapıntılara yol verirdi. Lakin gəlin əvvəlcə səhvlərə yox, onun musiqimizlə bağlı uğurlu fikirlərinə nəzər salaq.

Ümumiyyətlə, M.Quliyev sənətin bütün növlərini ictimai-iqtisadi inkişafa kömək edəcəyi təqdirdə gərəkli sayırdı. Məsələn, o, Qliyerin "Şahsənəm" operasına yüksək qiymət verməklə yanaşı, dediyimiz baxımdan tənqid də edirdi. "Bu opera sənətin böyük bir nailiyyəti olacaq və bizdə musiqi sənətinin inkişaf etməsi işində böyük bir rol oynayacaqdır… bu əsərdə bizim xalq mahnılarımız birinci dəfə olaraq Avropa ustad kompozitoru tərəfindən işlənilmişdir ki, əsərin böyük qiyməti də burasındadır".

Qliyerin operası kimi bir operanın baş nöqsanı… onun həyatımızı yalnız tarixi bir aspektdə təsir etməsindədir… O, feodal xan mədəniyyətinin qürub edən günəşi ilə qızarmış gözəl bir bulud, bir masaldır. Onda hərəkət, dinamika və müasir həyatın iradəvi işlərindən bir əsər yoxdur. Böylə olurkən də o, bizim yeniləşmiş həyatımızın tələbatını təmin etməz" (123).

Heç şübhəsiz ki, 20-ci illərin ortalarında meydana çıxmış bu fikirlərdə proletkult nəzəriyyəsindən gələn bir milli nihilizm var idi. O zaman qızışmış başlar ifrat revanşizmə qapılaraq köhnə mədəniyyəti yeni sənət üçün yararsız elan edir. "Klassikləri müasirlik gəmisindən kənara atın!" (V.Mayakovski) deyən müasirləri kimi, M.Quliyev də keçmişin mədəni irsi ilə mübarizə ideyasını müdafiə edirdi: "Təbii əski ədəbiyyatla mübarizə bu günkü proletar ədəbiyyatımızın qarşısında duran mühüm bir vəzifədir. Və bu ən birinci düşmən istehkamıdır ki, "Ədəbiyyat cəbhəsi" birinci atəşində buna doğru açmalıdır" (125). Belə bir ideoloji-metodoloji baxımdan yanaşdığı üçün də o, Azərbaycan musiqisini və onun doğma Şərq, turk-islam kontekstində boy atdığını qəbul edə, qiymətləndirə bilmirdi. Onun qədim və gözəl musiqi alətimiz olan tarla bağlı fikirləri bu baxımdan səciyyəvidir: "Tar nə xalq, nədə türk aləti deyildir, onun gələcəyi yoxdur. Musiqi aristokrat cəmiyyətlərinə məxsus olduğu Ərəbistan, İran, Hindistanda üçdə bir, dörddə bir səsli musiqi alətləri mövcud idi. Bu alətlər nə kütləvi, nə də xalqa aid olmayıb, yalnız cəmiyyətin gözündə bir qisminə məxsusdur.

Buna görə də kütləvi olmadığı kimi, gələcəyi də olmayan bir alətdə mahir ustadlar hazırlamanın heç bir mənası yoxdur" (126).

M.Quliyev tarın tədrisi əvəzinə türk xalq nəğmələrinin toplanıb işlənməsi, Avropa tipli orkestrin təşkilini vacib hesab edir. Tarçı, kamançı və zurnaçılardan ibarət Şərq orkestrinin, musiqinin inkişafı üçün əhəmiyyətli olmadığını söyləyən M.Quliyev tara mənfi münasibətini, həm də onun səsindəki hüzn və nalə ilə izaha çalışır. Avropa musiqi texnikasını hərarətlə müdafiə edən tənqidçi, "Şərq ilə Qərbin bitişdiyi neft ölkəsində" "İnqilabi həyatı və yeni inşaat işini ifadə edən" musiqi yaratmaq üçün musiqidə Qərb texnikası ilə Şərq gözəlliklərini birləşdirməyi yeganə, düzgün yol hesab edir. "Bən heç də məhəlli xalq musiqi alətlərinin atılması tərəfdarı deyiləm, məhəlli nəğmə və alətlərin öyrənilməsinə və toplanmasına hər dürlü yardımda bulunmalıdır" — deyə M.Quliyev əslində Avropa musiqisinə yol açmaq üçün Şərq və milli musiqiyə inqilabi bir cahad edan edirdi.

Əlbəttə, bu fikirlə razılaşmaq olmaz. XII əsr Azərbaycan mədə-niyyəti tarixində İntibah erası idi. Musiqi elmimiz, poetika sistemləri, məhz, orta əsrlərdə xüsusi bir inkişaf keçirdi. M.Quliyev Şərq, o cümlədən orta əsrlər Azərbaycan mədəniyyətinə dərindən bələd olmadığı

üçün belə fikrə gəlirdi. Əslində Avropa tarixi, elm və mədəniyyəti Şərqdən gəlirdi. Çünki "Ümumdünya tarixi Şərqdən Qərbə doğru hərəkət edir" (Hegel).

**Məqalənin aktuallığı.** M.Quliyevin yaradıcılığında milli teatr və musiqi problemləri əsas yer tutur. Nəzərə alsaq ki, o, klassik dramaturgiyanın tanınmış nümayəndələri, xüsusən də M.F.Axundov, H.Cavid, C.Cabbarlı və b. haqqındakı yazılarında dramaturgiyanı milli teatr prosesi ilə vəhdətdə araşdırmış, teatrın milli-tarixi mövqeyi baxımından qiymətləndirmişdir və bu problem hal-hazırda da diqqət mərkəzindədir, onda məqaləni aktual hesab etmək olar.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, maarifçi, tənqidçi və nəzəriyyəçi kimi M.Quliyevin yaradıcılığına rus ədiblərinin təsiri konkret faktlarla göstərilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalə doktorant, bakalavriat və magistrantların elmi axtarışlarının qaynaqlarına çevrilə bilər.

## Ədəbiyyat

1. Quliyev M.Hazırda türk ədəbiyyatı haqqında // Maarif və mədəniyyət, 1926, № 10-11.
2. Quliyev M. «Od gəlini». «İnqilab və mədəniyyət», 1928, № 2.
3. Belinski V.Q. Seçilmiş məqalələri. Bakı: Gənclik, 1979.
4. Quliyev M. Mirzə Fətəli Axundovun yaradıcılığı // İnqilab və mədə-niyyət, 1928, № 3.
5. Əlizadə M. Teatr: seyr və sehr… Bakı: Elm, 1998.
6. Quliyev M. Azərbaycanda teatro sənəti məsələləri // Maarif və mədəniyyət, 1926, № 8.
7. Rəsul Rza. Əgər sağ olsaydı… "Ədəbiyyat və incəsənət" qəz., 1969, 11 yanvar.
8. «M.Q.» «Ədəbiyyat cəbhəsində» qəzeti haqqında bir neçə söz // İnqilab və mədəniyyət, 1928, № 7.

**Г. Сулейманова**

## Проблемы национального театра и музыки в концепции искусства М. Гулиева

## Резюме

Концепция искусства, созданная Гулиевым, основана на проблемах национального театра и музыки и определяет ключевые направления. Он еще изучал драматургию с национальным театральным процессом в своих трудах по классической драматургии, особенно М.Ф. Ахундов, Х.Джавид и Ч.Джаббарлы, оценил национально-историческую позицию театра. Это верно как тогда, так и сейчас.

**G. Suleymanova**

## Problems of the national theater and music in the concept of art M. Guliyev

## Summary

Guliyev's conception of the arts is based on national theater and music problems, and identifies the key areas. He is still in the works of classical drama, especially in his writings on M.F.Akhundov, H. Javid and C. Jabbarli, studied drama in conjunction with the national

theater process and assessed the theater in terms of its national-historical position. This is true both in the past and in the present.

**Redaksiyaya daxil olub:** 16.09.2019